**Dövlət rüsumu haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**
( ç ı x a r ı ş )

**Maddə 6 . Dövlət rüsumu tutan subyektlərin məsuliyyəti**

6.1. Dövlət rüsumu tutan idarə və təşkilatların vəzifəli şəxsləri rüsumun düzgün tutulması və dövlət büdcəsinə vaxtında və tam köçürülməsi üçün məsuliyyət daşıyırlar.

6.2. Dövlət rüsumunun məbləğləri barədə məlumat müvafiq xidmət göstərən dövlət orqanının və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun olduğu binanın (otağın) görünən yerində lövhədə yerləşdirilməlidir.

**Maddə 1 0 . Notariat kontorları və dövlət orqanları tərəfindən notariat hərəkətlərinin aparılmasına, notariatfəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamənin verilməsinə və onun müddətinin uzadılmasına görə dövlət rüsumunun dərəcələri**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 10.17. Sənədlərdəki imzanın həqiqiliyinin, həmçinin tərcüməçinin imzasının həqiqiliyinin (hər imza üçün) təsdiqi üçün | 2 manat |

**Maddə 2 0 . Hüquqi şəxslərin dövlət qeydiyyatı va yenidən qeydiyyatı üçün dövlət rüsumunun dərəcələri**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 20.3. Digər hüquqi şəxslərin qeydiyyatı üçün. | 11 manat |
| 20.4. Hüquqi şəxslərin yenidən qeydiyyatı üçün. | bu Qanunun 20.1 - 20.3-cü maddələrdə göstərilən məbləğin 50 faizi |
| 20.5. Hüquqi şəxslərə qeydiyyat şəhadətnaməsinin dublikatının verilməsi üçün. | 2 manat |
| 20.6. Sənədlərin surəti şəklində dövlət reyestrindən çıxarışların verilməsi üçün (hər səhifəyə görə) | 1 manat |

**Maddə 20-1. Hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə dövlət rüsumundan azadolmalar**

20-1.1. Dövlət reyestrində dəyişikliklər rüsumsuz aparılır.

20-1.2. Dövlət orqanlarına və təsisçilərə sənədlərin surəti şəklində dövlət reyestrindən çıxarışlar rüsumsuz verilir.

20-1.3. Hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz aparılır.